# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

## VAKANSİYA ELANI

## Enerji sahəsində liberallaşdırma şöbəsi–Mütəxəssis

**Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.**

### VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində (bundan sonra – müvafiq sahə) qanunvericilik və normativ xarakterli akt layihələrinin, inkişaf konsepsiyalarının, strategiyaların məqsədli proqramların hazırlanması ilə bağlı məlumatlar toplayır və araşdırmalar aparır;
- Müvafiq sahədə əlverişli investisiya mühitinin formalaşdırılması, stimullaşdırıcı mexanizmlərin tətbiqi və investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq təcrübəni araşdırır və məlumatlar toplayır;
- Müvafiq sahədə istehsalın diversifikasiyası, investisiyaların cəlb edilməsi və enerji istehsalının səmərəliliyinin artırılması ilə bağlı araşdırmalar aparır;
- Müvafiq sahədə qəbul olunmuş dövlət proqramları, yol xəritələri, konsepsiyaların və strategiyaların icrası ilə bağlı hesabatların hazırlanması üçün məlumatlar toplayır;
- Müvafiq sahədə sağlam rəqabət mühitinin formalaşdırılması, mübahisələrin həlli və istehlakçıların hüquqlarının müdafiəsi məsələləri ilə bağlı beynəlxalq təcrübə əsasında araşdırmalar aparır;
- Müvafiq sahədə bazar münasibətlərinin formalaşdırılması üçün qabaqcıl beynəlxalq təcrübəni araşdırır;
- Müvafiq sahədə bazarın liberallaşdırılması məsələləri ilə bağlı araşdırmalar aparır, arayışlar, analitik məlumatlar hazırlayır;
- Seminar, təlim, konfrans, müşavirə və digər tədbirlərdə şöbə müdirinin razılığı ilə iştirak edir və nəticəsi barədə məlumat verir;
- Şöbəyə daxil olan sənədlərlə tanış olur və icrası tələb olunan müraciətlərin müəyyən edilmiş müddətlərdə cavablandırılmasını təmin edir;
- Şöbənin Əsasnaməsi ilə müəyyən edilmiş vəzifələrin icrası ilə bağlı şöbə müdiri tərəfindən verilən tapşırıqları yerinə yetirir.

### TƏLƏBLƏR:

- Enerji menecmenti, iqtisadiyyat, biznesin idarə edilməsi, beynəlxalq münasibətlər üzrə ali təhsil;
- İxtisas profilinə uyğun 3 ildən az olmayaraq iş təcrübəsi;
- Yaş həddi 25-35 aralığı;
- Yüksək səviyyədə MS Office bilikləri;
- Kataloqlar və internet kimi mənbələrdən istifadə etmək bacarığı;
- Normativ hüquqi və digər sənədlərlə işləmə bacarığı;
- Azərbaycan dilini səlis bilməli, ingilis dili yüksək səviyyədə, rus dili arzuolunandır;
- Fikrini düzgün ifadə etmə və savadlı yazı qabiliyyəti.

**DİGƏR:**

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma.
- İş yerinin ünvanı: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 84

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini vacancy@regulator.gov.az poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (**Enerji sahəsində liberallaşdırma şöbəsi-Mütəxəssis**) qeyd etməniz tələb olunur.